# HEYDƏR ƏLİYEVİN TƏBİƏTİN QORUNMASI SİYASƏTİ XANIM MEHRİBAN ƏLİYEVANIN "YAŞIL MƏDƏNİYYƏT" ÇAĞIRIŞLARINDA

**Rəna Mirzəzadə**

*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Bakı*
*Mirrena54@yahoo.com*

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanda ekoloji sistemin mühafizəsi, bu sahədə olan problemlərin həllinə xüsusi nəzər yetirirdi:

– ekocoğrafi məsələlərin həlli;
– təbiət abidələrinin qorunması;
– ekoloji şəraitin saflaşdırılması;
– təbii resurslardan səmərəli istifadəyə daim diqqət yönəltmə;
– qanunvericilik aktlarının milli zəmində təkmilləşdirilməsi;
– beynəlxalq Konvensiyaların ölkədə təsbit edilməsi.

Azərbaycanda olan çoxgörünüşlü yaşıllıq zonaları Ulu Öndərin təbiətə sevgisi və diqqətinin göstəricisidir. Ulu Öndər hər zaman təbiətə qayğı göstərmiş, onun sərvətlərini qorumağı tövsiyə etmiş, "insanları təbiətin övladı" kimi dəyərləndirmişdi.

Ulu Öndər Heydər Əliyev yaxşı bilirdi ki, Azərbaycanın sabit inkişafı, ekosistem təbiətin ani yaratdığı problemlərin həllindən çox asılıdır. Hakimiyyətdə olduğu bütün dövrlərdə Ulu Öndər respublikada yeni ekoloji mədəniyyətli düşüncənin formalaşmasına, hər yerdə yaşıllaşdırma işlərinə təkan vermişdi, ölkədə sürəkli yaşıllaşdırma prosesi gedirdi. Ümummilli Lider hamını Bakının da yaşıllaşdırılmasında iştirak etməyə səsləyirdi: "Nə əkmişik, hamısı becərilib böyüdülməlidir. Hər bir ağac uçota alınmalıdır." (4)

Ulu Öndər siyasətində ekoloji fəaliyyətin əsas yolu təbiəti gələcək nəsillər üçün qorumaq idi.

Ulu Öndər tərəfindən qəbul edilən siyasi-ekoloji-mədəni qanunlar, qərar və sərəncamlar ekosistemin qorunması və mühafizəsinə yönəlmişdi.

Prezident İlham Əliyev və Birinci Vitse-prezident Mehriban Əliyeva Ulu Öndərin ekoloji siyasətini uğurla davam etdirirlər. Ölkədə yaşıllaşdırma kütləvi, stabil və davamlı prosesə, vətəndaş vərdişinə çevrilmişdir, "Hərəyə bir ağac əkək" kampaniyası aparılır.

Qeyd edək ki, Ulu Öndərin ekosistemlə bağlı siyasəti üzrə Heydər Əliyev Fondunun Prezidenti Xanım Mehriban Əliyeva tərəfindən ekosistemin qorunması və təbiətin mühafizəsində gənclərin biliklərinin artırılması üçün genişmiqyaslı maarifləndirmə işləri aparılır, iməciliklər, müsabiqə və turnirlər, sərgi və dəyirmi masalar, yay məktəbləri təşkil olunur. Bu baxımdan, məhz Xanım Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu 2007-ci ildə ətraf təbiətin qorunması və ekoloji mühitin yaxşılaşdırılması üçün "Hərəmiz bir ağac əkək!" aksiyasını həyata keçirdi (1). Təbiətin qorunması üçün respublikada 1 milyondan çox ağac əkildi. Bu bir "yaşıl aksiya" və "yaşıl mədəniyyət" devizli çağırış idi.

Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi 2014-cü ildə "Ağacların kəsilməsinə yox!" proqramı kontekstində "Təbiətə təcili yardım" qaynar xətti və mobil qrupunu yaradıb, əhaliyə müraciət etdi (2). Nəzərə alsaq ki, təbiət də canlıdır, onun məhvi insanlığın fəlakətidir.

Ekoloji təhlükəsizliyin qorunması və təbiətin mühafizəsində gənclərin biliklərinin artırılması üçün maarifləndirmə işləri ilə yanaşı, həm də real praktiki fəaliyyət həyata keçirilir. Məhz bu kimi tədbirlər və eləcə də iməciliklər, müsabiqə və turnirlər, sərgi və dəyirmi masalar, yay məktəblərinin təşkil olunması hər bir insanın "yaşıl təmiz aləmdə" yaşaması deməkdir. Dünya "yaşıl mədəniyyətli" olanda sanki insanlıq da belə əsrarəngizliyin önündə sağlamlaşır.

Heydər Əliyev Fondunun, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının və Həştərxan Vilayət Administrasiyasının 2012-ci ildə Həştərxan şəhəri şagirdləri arasında "Təbiətin mühafizəsi" adlı inşa yazı müsabiqəsi aparılması isə Xanım Mehriban Əliyevanın ictimai-diplomatik fəaliyyətində "yaşıl mədəniyyətli dünya" çağırışlı istiqamətdir.

Heydər Əliyev Fondu 2010-cu ildən Bakının Qala qəsəbəsində tullantıların düzgün idarə edilməsi sisteminin qurulması üçün keçirdiyi "Təmiz Qala" aksiyasında əsas məqsəd tullantıların yığımının və daşınmasının, həmçinin sonrakı utilizasiyanın müasir standartlara uyğunlaşdırılaraq, vətəndaşlara "yaşıl mədəniyyət" yolunu aşılamaqdır.

2012-2014-cü illərdə insanları israfçılıqdan uzaqlaşdırmaq və öz əşyalarını fikirləşmədən zibil qutularına atma adətindən çəkindirmək üçün Heydər Əliyev Fondunun, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı ilə Qala Dövlət Tarix Etnoqrafiya Qoruğunda "Tullantıdan sənətə" mövzusunda beynəlxalq sərgi təşkil edilmişdi (3). Bu sərgi bir məlumatlandırıcı aksiya kimi çox yerdə tətbiq edildi.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Heydər Əliyev Fondunun dəstəyi və bilavasitə Xanım Mehriban Əliyevanın təşəbbüsü ilə ekologiyanın və təbiətin qorunma tarazlığı üçün ekoloji tarix və ölkədəki bioloji müxtəlifliyin mühafizəsində çox önəmli olan "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" layihəsini də həyata keçirmişdir ki, bu, xüsusi əhəmiyyətli tədbir idi (4).

Təbiətin qorunması və mühafizəsi Biomüxtəliflik Konvensiyasının əsas parametrləridir. Konvensiya 2000-ci ilin martında Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunmuşdur. Konvensiyanın imzalanması Ulu Öndər siyasətinin reallıqları, Prezident İlham Əliyevin davamlı inkişaf strategiyası xəttidir. Konvensiyaya uyğun olaraq, respublikada bioloji müxtəlifliyin qorunması üzrə xeyli tədbir və aksiyalar keçirilmişdir.

Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban Əliyevanın da fəaliyyətində bu siyasətdən irəli gələrək, 2019-cu ildə "Nəsimi ili" çərçivəsində ölkədə 650 min ağacın əkilməsi gözəl nümunədir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə IDEA təşkilatının, "Hərəyə bir ağac əkək" və "Heyvanları qoruyaq" kampaniyaları da fauna və floranın mühafizəsində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva 2015-ci il 4 dekabrında Parisdə BMT-nin İqlim Dəyişikliyi üzrə 21-ci konfransında (COP21) iştirak etmişlər. Leyla xanım Əliyeva Avropa üzrə Regional Ətraf Mühit Mərkəzinin "Az karbonlu inkişaf və iqlim dayanıqlılığı üçün innovativ yanaşmalar" mövzusunda tədbirdə çıxış edərək söyləyib: "Təbiət heç kəsə məxsus deyil. O, bizə verilib və bizim də vəzifəmiz onu növbəti nəsillərə ötürməkdir. Ətraf mühiti qorumaq məqsədilə yeni həll yollarını tapmaq üçün əməkdaşlıq etməliyik" (5).

**Ədəbiyyat:**


1. Xalq qəzeti, 29 mart 2007. Heydər Əliyev Fondunun yeni layihəsi "Hərəmiz bir ağac əkək!".
2. 5 may 2014. Heydər Əliyev Fondu və IDEA İctimai Birliyinin "Ağacların kəsilməsinə yox!" proqramı.
3. AzərTac, 17.07.2014. Beynəlxalq "Tullantıdan sənətə" sərgisi, 17 iyul 2014-cü il.
4. Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası. heydar-aliyev-foundation.org. 14.09.2017.
5. Teleqraf.com/news/toplum/79105.html